# Sevincimizə sevinc qatan böyük zəfər

***Müstəqil Azərbaycan dövləti hazırda Prezident İlham Əliyevin qətiyyəti, yenilməz sərkərdəlik və diplomatik məharəti sayəsində tarixinin ən şanlı və qürurlu günlərini yaşayır. Otuz ilə yaxındır mənfur erməni işğalçılarının əsarətində olan doğma Qarabağımız, dədə-baba torpaqlarımız müzəffər ordumuz tərəfindən azad edilmişdir və ərazi bütövlüyümüz tam bərpa olunmaqdadır.***

***Ölkəmizdə demokratik, hüquqi dövlət quruculuğu prosesi, təbii ki, məhkəmə-hüquq sisteminin islahatları ilə bərabər aparılmalıdır. Çünki bu amillər bir-birindən çox asılıdır ... Məhkəmə-hüquq islahatları ölkəmizin ümumi inkişafına öz töhfəsini verməlidir.***

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

Biz, ədliyyə işçiləri çox böyük fəxarət və qürur hissi ilə bildiririk ki, builki peşə bayramımız bütün xalqımızın Azərbaycan Silahlı Qüvvələrinin Qarabağ savaşında qazandığı Qələbənin hədsiz sevincini yaşadığı bir vaxta düşür. Necə deyərlər, bu möhtəşəm qələbə sevincimizə sevinc qatdı, bütün azərbaycanlıları bəxtiyar etdi.

Bəri başdan onu da vurğulayım ki, bu tarixi qələbənin qazanılması ilə möhtərəm Prezidentimiz, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı cənab İlham Əliyev əcdadlarımızdan bizə dərin və acı yara kimi miras qalmış Qarabağ düyününü birdəfəlik açmaqla, gələcək nəsillərə problemsiz dövlətdə yaşamaq hüququ bəxş etdi. Bu tarixi qələbə o qədər böyükdür ki, bəlkə də, çoxları onun möhtəşəmliyini indi tam mənası ilə qavraya bilmir. Ali Baş Komandanımızın rəhbərliyi ilə qazanılmış bu qələbə Azərbaycanı ayağa qaldırdı, yatmış vulkanı oyatdı. Bu oyanış böyük qurtuluş, dirçəliş, özünədönüş və özünüdərkdir. Nə qədər xoş sözlər söyləsək və yazsaq da, azdır. Bu hissləri sözə sığışdırmaq qeyri-mümkündür.

Fəxrlə onu da deyə bilərik ki, milli müstəqilliyimizin simvolu olan Dövlət Bayrağı Günü qeyd olunan bu ərəfədə xalqımızın qalibiyyət rəmzi – Şuşa şəhərinin işğaldan azad olunması və tarixi Qələbə münasibətilə Ədliyyə Nazirliyində yığıncaq keçirildi.

Tədbirdə çıxış edən ədliyyə naziri Fikrət Məmmədov ölkə Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun şanlı Qələbə qazanması və Bayraq Günü münasibətilə kollektivi təbrik etdi. Nazir hərbçilərimizin şücaəti və qəhrəmanlığı sayəsində Şuşanın düşmən tapdağından qurtarılaraq, üzərində bayrağımızın dalğalanmasının mübarizəmizin dönüş nöqtəsi olduğunu, çoxsaylı yaşayış yerlərinin və yüksəkliklərin işğaldan azad edildiyini bildirdi. O, həmçinin dövlətimizin başçısının ulu öndər Heydər Əliyevin ən ümdə vəsiyyətinin şərəflə icra edildiyini – "Qarabağ Azərbaycandır!" kəlamını bu tarixi gündə Qələbəmizin rəmzinə çevrildiyini vurğuladı.

Şuşada və işğaldan azad olunan digər ərazilərdə doğulan ədliyyə işçiləri sevinclərini bölüşərək, xalqımıza unudulmaz və ölçüyəgəlməz fəxarət hissləri yaşatdığı üçün ölkə Prezidentinə və respublikamızın Birinci vitse-prezidenti



Mehriban xanım Əliyevaya sonsuz minnətdarlıqlarını ifadə etdilər. Qeyd olundu ki, böyük ruh yüksəkliyi ilə Ali Baş Komandanın ətrafında sıx birləşən xalqımız, o cümlədən ədliyyə işçiləri və hakimlər müzəffər dövlət başçımıza və bizə qələbələr bəxş edən ordumuza hədsiz minnətdardırlar.

Noyabrın 9-da Avropa Şurası Nazirlər Komitəsində Yunanıstanın sədrliyi çərçivəsində üzv dövlətlərin ədliyyə nazirlərinin "Ədliyyənin müstəqilliyi və qanunun aliliyi" mövzusunda videoformatda keçirilən konfransda ədliyyə nazirimiz cənab Fikrət Məmmədov çıxışının bir hissəsini Dağlıq Qarabağ münaqişəsinə həsr edib. Bildirib ki, Ermənistan 30 ildir BMT Təhlükəsizlik Şurasının və tədbirdə sədrinin iştirak etdiyi AŞPA-nın qətnamələrinə məhəl qoymayaraq, işğalda saxladığı torpaqlarımızı azad etməyib danışıqlar prosesini qəsdən tamamilə pozaraq, hərbi təxribatlara keçib. Buna cavab olaraq Azərbaycan da BMT Nizamnaməsinə uyğun olaraq, özünümüdafiə hüququna əsaslanmaqla əks-hücum əməliyyatları həyata keçirdiyini bildirib. Avropa ədliyyə nazirlərinin və Avropa Şurası rəhbərliyinin diqqətinə çatdırılıb ki, Ermənistan beynəlxalq humanitar hüquq normalarını kobud surətdə pozaraq, dinc əhalini məqsədyönlü şəkildə atəşə tutub, bu zaman qadağan olunmuş kasseti və fosforlu bombalardan, ballistik raketlərdən istifadə edib. Nəticədə, uşaqlar və qadınlar da daxil olmaqla 100-ə yaxın mülki vətəndaşın həlak olduğu və 400-dən çox insanın yaralandığı bildirilib. Nazir qeyd edib ki, bütün bunlar insanlıq əleyhinə və müharibə cinayətləridir.

1993-cü ildə Azərbaycan xalqının istəyi və təkidi ilə ulu öndər Heydər Əliyev Bakıya dəvət edildi. Böyük təcrübə sahibi olan dahi siyasətçi öncə ölkədə olan qarşıdurmaya və hərc-mərcliyə son qoydu. Ulu öndər yaxşı bilirdi ki, iqtisadiyyatı zəif olan ölkədə müharibə aparmaq olmaz. Odur ki, ilk növbədə atəşkəs əldə etdikdən sonra, Azərbaycanda siyasi və iqtisadi sabitlik yaratdı. Bundan sonra ölkə iqtisadiyyatını gücləndirmək üçün qlobal layihələrə imza ataraq və ordu quruculuğuna böyük önəm verərək, Azərbaycanın bugünkü nailiyyətlərinin bünövrəsini qoydu.

Ulu öndər Heydər Əliyevin düzgün siyasət və uzaqgörənliyinin ən parlaq təcəssümü isə özündən sonra Azərbaycanın və onun vətəndaşlarının gələcək taleyini etibarlı şəxsə tapşırması idi. Ulu öndər Heydər Əliyevin layiqli davamçısı cənab İlham Əliyevin sayəsində Azərbaycanın bütün sahələrdə inkişafı Avropa ölkələri ilə eyni səviyyədə olmuş, hətta bəzi məsələlərdə inkişaf etmiş Avropa dövlətləri də Azərbaycanın təcrübəsindən yararlanmışlar. Uzaqgörən və vətənpərvər siyasətçi kimi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ulu öndər Heydər Əliyevin yolunu inamla davam etdirərək, güclü Azərbaycan Ordusunun yaradılmasına xüsusi önəm vermişdir. Məhz bu uzaqgörənliyin və böyük siyasi iradənin, həmçinin xalq-iqtidar birliyinin nəticəsi kimi 10 noyabr 2020-ci il Azərbaycan tarixinə Vətən müharibəsində şanlı Qələbə günü kimi yazılmışdır!

2020-ci il sentyabrın 27-də Ermənistan arxasında öz havadarlarının dəstəyini hiss edərək, son zamanlar Azərbaycana qarşı tez-tez səsləndirdiyi yeni torpaq iddialarını gerçəkləşdirmək niyyəti ilə hərbi əməliyyatlara başladı. Ermənilər və onların havadarları bilmirdi ki, dövlətimiz ötən əsrin 80-90-cı illərindəki Azərbaycan deyil. Ali Baş Komandan cənab İlham Əliyev və xalqın birliyi ilə ordumuz ermənilərin təcavüzünün qarşısını alaraq onlara layiqli cavab verib Qarabağ uğrunda ikinci Vətən müharibəsində düşməni darmadağın etdi. Qüdrətli ordumuza döyüşdə məğlub olan düşmənin çox sayda canlı qüvvə itirərək texnikalarını, silah anbarlarını qoyub qaçması buna əyani sübutdur. Bu Qələbə Azərbaycanın tarixinə qızıl hərflərlə yazıldı: Qarabağ Azərbaycandır!

Möhtəşəm Qələbənin sevincini yaşadığımız günlərə, həmçinin 22 noyabr – Ədliyyə İşçilərinin Peşə Bayramı Gününə təsadüf etmişdir. Azərbaycanın müstəqilliyi illərində ulu öndər Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi siyasətin və dövlət quruculuğunun bir hissəsi kimi Azərbaycan ədliyyəsinin keçdiyi inkişaf yolundan saatlarla danışmaq olar. Amma təkrar olmasın deyə buna ehtiyac yoxdur.

Həmçinin qeyd edirəm ki, bir çox ədliyyə işçiləri Ali Baş Komandan cənab İlham Əliyevin səfərbərlik çağırışına səs verərək Vətən müharibəsində iştirak üçün ordu sıralarına qoşulmuş, mənfur düşmənə qarşı döyüşlərdə şərəf və şücaətlə mübarizə apararaq, torpaqlarımızın azadlığı işinə öz töhfələrini vermişlər.

Hakimi olduğum Goranboy Rayon Məhkəməsi kollektivinin üzvləri olan məhkəmənin operatoru Behbudov Rauf Elman oğlu və kompüter proqramçısı Dəmirov Şadman Bəhman oğlu da müharibənin ilk günlərindən Ali Baş Komandanın çağırışına səs verərək, Vətənimizin müdafiəsinə yollanmış, döyüşlərdə qorxmazlıq nümayiş etdirərək, hər birimizin başını uca etmiş, hazırda döyüş mövqeyində Vətənin müdafiəsindədirlər.

Təəssüf ki, bu Qələbə üçün sağlamlığından və canından keçmiş igid oğullarımız da az deyil. Bunların arasında Ədliyyə Nazirliyinin İcra Baş İdarəsinin məsləhətçisi Xəlilov Ruhin Müzəffər oğlunu xüsusilə vurğulamaq istəyirəm. Vətən müharibəsinə könüllü yollanmış cəsur qardaşımız Ruhin Xəlilov torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Həmçinin Xızı Rayon Məhkəməsinin böyük mütəxəssisi, dəftərxana müdiri Baxşızadə Kamran Taryel oğlu ağır yaralanmışdır.

Goranboy Rayon Məhkəməsinin kollektivinin adından başda Azərbaycan Respublikasının Ali Baş Komandanı cənab İlham Əliyev olmaqla Vətən Müharibəsində iştirak edən bütün zabit və əsgərlərimizə dərin təşəkkürümü bildirirəm. Bütün şəhidlərimizə Allahdan rəhmət, ailələrinə səbr diləyirəm.

Fürsətdən istifadə edərək, həmçinin Böyük Qələbə və peşə bayramı münasibətilə bütün ədliyyə işçilərini ürəkdən təbrik edir və onlara qanunun aliliyinin, insan haqlarının təmin olunması işində müvəffəqiyyətlər arzulayıram.

***Samir MAYILOV,***
***Goranboy Rayon Məhkəməsinin hakimi***